# Muğamın Ağaxanı

**Tariximizin minillik yaddaşından süzülüb gələn, könüllərdə məskən salan, xalqın adında əbədiləşən mənəviyyat abidəsi, xalqımızın milli kimliyini dünyaya təqdim edən ifadır muğam. Muğam onu yaradan və yaşadan xalqın həyat qaynağı, yaşam mənbəyidir. Muğam xalq musiqi təfəkkürünün dərin mənalı, aydın və səlis ifadəli yaradıcılıq məhsuludur.**



Azərbaycan muğam musiqisinin inkişafında musiqi yaradıcılarının, xanəndələrin böyük xidmətləri olub. Heç tərəddüd etmədən qeyd edə bilərik ki, Azərbaycan musiqi mədəniyyətinin inkişafında bir çox görkəmli xanəndələrin adları əbədiyaşarlıq qazanıb. Əsl sənətkar olmaq, xalqın rəğbətini qazanıb ürəklərə həmişəlik yol tapmaq, ən başlıcası, milli sərvətimiz sayılan muğamlarımızın saflığını qoruyub, onu özünəməxsus çalarlarla zənginləşdirmək hər sənətkara nəsib olmur. Belə ustad sənətkarlardan biri də Azərbaycanın milli muğam sənətinin görkəmli nümayəndəsi, Xalq artisti Ağaxan Abdullayev idi.

Xanəndə 1950-ci il fevralın 6-da Bakının Türkan kəndində anadan olub. Atası Minaxan kişi oğlunun xanəndə olmasını istəməsə də, Ağaxan hələ kiçik yaşlarından bunun üçün çalışıb. Müsahibələrinin birində özü bu haqda belə deyib: "Ailəmizdə səsli adamlar çox olub. Atamın, əmilərimin çox dəyərli səsləri var idi. Yəni səs nəslimizdə hamıda var. Asəf Zeynallı adına Musiqi Texnikumuna daxil olana qədər muğamı atamdan öyrənmişəm. Onun muğamları dəstgah şəklində oxumağa səs imkanı vardı. Amma onu da deyim ki, atam muğamı gözəl bilsə də, oxusa da, son ana qədər mənə xanəndə olmağa icazə vermirdi".

Öz yolunu hələ kiçik yaşdan seçən Ağaxan 1969-1973-cü illərdə A.Zeynallı adına Orta İxtisas Musiqi Məktəbində Nəriman Əliyevin sinfində təhsil alıb. 1973-cü ildə Əbilov adına Mədəniyyət Evində muğam ixtisası üzrə müəllim vəzifəsinə dəvət olunub.

XX əsrdə Azərbaycan milli musiqisinin ən yüksək zirvəsi sayılan xanəndəlik sənətini inkişaf etdirərək bu yolda yeni cığır açan Ağaxan Abdullayev 1977-ci ildən A.Zeynallı adına Musiqi Məktəbində muğam müəllimi kimi fəaliyyətə başlayır. Xanəndənin dərs dediyi sənətkarlar arasında dünyaşöhrətli muğam ustası Alim Qasımov da var.

Xalq artisti Alim Qasımov Ağaxan Abdullayev haqqında danışarkən onu əvəzi olmayan muğam ifaçısı kimi dəyərləndirir. "Ağaxan müəllim mənim ustadım və muğamatın ustasıdır. Bu sənətin incəliklərini ondan öyrənmişəm. Onun haqqında danışmağa çox söz var. Ağaxan müəllim muğamatın dahilərindən idi. O, hər zaman yaddaşlarda qalacaq, unudulmayacaq. Xalq Ağaxan Abdullayevə layiqli qiymətini verib".

Onun sənəti musiqi tariximizdə, xüsusən muğam sənətində ayrıca, bənzərsiz bir məktəbdir. Ağaxan Abdullayev məlahətli səsi, yüksək səs tembri ilə hər kəsi heyran qoymağı bacaran, sələflərinin yaradıcılıq ənənələrini layiqincə yaşadan bir xanəndə idi. Zərb muğamlarının bənzərsiz ifaçısı olan xanəndə həm də təsnif və xalq mahnılarının ifaçısı kimi öz adını musiqisevərlərin yaddaşına əbədi həkk edə bilib.

1975-ci ildə Filarmoniyada fəaliyyətə başlayan Ağaxan Abdullayev Rusiya, Qazaxıstan, Gürcüstan, Özbəkistan, ABŞ, Kanada, Almaniya, Hollandiya, İsveç, Belçika, Avstriya, Fransa, Avstraliya, Hindistan, İraq, Tunis, Türkiyə, İran və digər ölkələrdə konsert proqramları ilə çıxışlar edərək Azərbaycan muğam sənətinin dünyaya tanıdılmasında əvəzsiz xidmət göstərib.

İnanca görə, insanların adları onların məzmununu ifadə edir. Sənət yoldaşları onun haqqında danışarkən, ilk növbədə, ağayanalıq, mərdlik, insanlara qarşı doğmalıq, xeyirxahlıq kimi nəcib xüsusiyyətlərindən söz açırlar.

Ağaxan Abdullayev Bakı kəndlərinin ən sevimli xanəndəsi, əsl toylar kralı olub. Hətta Bakı kəndlərində, xüsusilə muğamsevərliyi ilə seçilən nardaranlılar xanəndənin vaxtına uyğun olaraq övladlarının toylarını təyin edirmişlər. Xalq arasında böyük nüfuz qazanan xanəndəyə "muğamın Ağası, muğamın Xanı" deyə xitab edirlərmişlər.

Ağaxan Abdullayev müsahibələrinin birində əsl xanəndə kimi yetişməsində Bakı toylarının böyük rolu olduğunu bildirib. Xanəndə fikirini belə izah edib: "Tək mən yox, bütün nə qədər yaxşı xanəndə yetişibsə, onların yetişməsində Bakı toylarının böyük rolu olub. Xanəndə gərək toyxanada bişsin. Elə indinin özündə də Abşeron kəndlərində "palatka" toyları az da olsa, qalır".

Xalq artisti Mənsum İbrahimov Ağaxan Abdullayev barəsində deyib: "Ağaxan Abdullayev böyük sənətkar idi. O, gənclərə xüsusi qayğı ilə yanaşan bir insan idi. Azərbaycan muğam məktəbində Ağaxan müəllimin öz yeri var. Onun adı muğam sənətinə qızıl hərflərlə yazılıb. O, Azərbaycan muğamını bütün dünyaya tanıdan insan olub. Eyni zamanda muğamı bir ustad kimi gənclərə sevə-sevə öyrədərdi. Mən Ağaxan müəllimlə dəfələrlə səfərlərdə olmuşam, onun yüksək ifasını görmüşəm. Uzun müddət muğam müsabiqəsinin münsifi olmuşuq, Azərbaycanın bütün bölgələrini qarış-qarış gəzmişik. Onun vəfatı çox böyük itkidir. Ağaxan müəllim çox tez, 66 yaşında vəfat etdi. Bu bir sənətkar üçün heç nədir. Ağaxan müəllim Azərbaycan xalqı tərəfindən hər zaman hörmət və sevgi ilə xatırlanacaq".

Xalq artisti Nəzakət Teymurovanın sözlərinə görə, Ağaxan Abdullayevin yeri hər zaman görünəcək: "Ağaxan müəllim böyük ustadlarımızdan biri idi. Mən Ağaxan müəllimlə Fransada, Macarıstanda, Rusiyada, Almaniyada və bir çox ölkələrdə səfərdə olmuşam. Ağaxan müəllimin ifasından sonra bütün salon onu ayaqüstə alqışlayırdı. Hər zaman Azərbaycan musiqisini yüksək səviyyədə təbliğ edib. Ağaxan müəllim bu dünyada dürüst yaşayıb. İstər gənclərə, istər həmyaşıdlarına qarşı hər zaman hörmətlə yanaşan, əlindən gələn köməyi edən xeyirxah insan idi. Çalışıb ki, muğamlarımız qorunub saxlanılsın".

Görkəmli xanəndə 1993-cü ildə "Azərbaycan Respublikasının Əməkdar artisti", 1998-ci ildə isə "Azərbaycan Respublikasının Xalq artisti" fəxri adlarına layiq görülüb. 2010-cu ildə "Şöhrət" ordeni alan xanəndə "Humay" milli mükafatı, "Qızıl çinar" beynəlxalq mükafatı ilə də təltif olunub.

Uzun illər xərçəng xəstəliyindən əziyyət çəkən Ağaxan Abdullayev 25 dekabr 2016-cı ildə 66 yaşında vəfat edib. Vəsiyyətinə əsasən, Türkan qəsəbəsi kənd qəbiristanlığında valideynlərinin yanında torpağa tapşırılıb.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 1 mart (№46).- S.11.